| | |
|---|---|
| **AKTIN NÖVÜ** | Qanunlar |
| **QƏBUL EDİLDİYİ TARİX** | 20.10.2015 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 1397-IVQD |
| **ADI** | "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Respublika Qəzeti (Dərc olunma tarixi: 04-11-2015, Nəşr nömrəsi: 242), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 30-11-2015, Nəşr nömrəsi: 11, Maddə nömrəsi: 1290) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 04.11.2015 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 390.010.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 12201510201397 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 03.11.2015 |

**“Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, 6, maddə 386; 2002-ci il, 8, maddə 465; 2011-ci il, 6, maddə 481) aşağıdakı dəyişikliklər edilsin:

1. 1.2-ci maddəyə “olmadıqda” sözündən sonra “və ya müvafiq müqavilə ilə tənzimlənməyən məsələlər üzrə həmin müqaviləyə zidd olmayan hissədə” sözləri əlavə edilsin.

2. 3-cü maddə üzrə:

2.1. 3.1.5-ci maddədə “çıxarıldıqda” sözü “və ya cinayət təqibinə xitam verilməsi haqqında qərar olduqda” sözləri ilə əvəz edilsin;

2.2. 3.1.8-ci maddədə nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 3.1.9-cu maddə əlavə edilsin:

“3.1.9. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə müvafiq olaraq cinayət xüsusi ittiham qaydasında (zərər çəkmiş şəxsin şikayəti əsasında) təqib edildiyi halda.”;

2.3. 3.2.3-cü maddədə “məruz qalmasını” sözlərindən sonra “və ya ədalətli məhkəməyə olan hüququnun kobud surətdə pozulmasını” sözləri əlavə edilsin.

2.4. 3.2.7-ci maddə aşağıdakı redaksiyada verilsin:

“3.2.7. sorğu edən xarici dövlətin qanunvericiliyinə əsasən şəxsin verilməsinə əsas olan cinayət üzrə dəyişdirilməz ömürlük azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulduqda.”.

3. 6-cı maddə üzrə:

3.1. 6.1-ci maddədə “Respublikası cinayət-prosessual qanunvericiliyinə” sözləri “Respublikasının Cinayət-Prosessual Məcəlləsinə” sözləri ilə əvəz edilsin;

3.2. aşağıdakı məzmunda 6.4-cü maddə əlavə edilsin:

“6.4. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilmədikdə, şəxsin verilməsi üçün həbsdə saxlanılma müddəti və həbsdə saxlanılma müddətinin uzadıldığı müddət Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilir.”.

4. 7-ci maddə üzrə:

4.1. maddənin adına “şəxsin” sözündən sonra “tutulması və” sözləri əlavə edilsin;

4.2. 7.1-ci maddədə “axtarışı” sözündən sonra “, tutulması” sözü əlavə edilsin, “cinayət-prosessual qanunvericiliyi” sözləri “Cinayət-Prosessual Məcəlləsi” sözləri ilə əvəz edilsin;

4.3. 7.2-ci maddədə “şəxsin” sözündən sonra “tutulması,” sözü əlavə edilsin;

4.4. 7.3-cü maddədə “həbsə alınması və ya həbsə alınmasından” sözləri “tutulması, həbsə alınması və ya bundan” sözləri ilə əvəz edilsin.

5. 8.2-ci maddədə “cinayət-prosessual qanunvericiliyi” sözləri “Cinayət-Prosessual Məcəlləsi” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 20 oktyabr 2015-ci il
1397-IVQD